

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 fevral 2022-ci il №9 (2620) https://mod.gov.az Qiymәti 30 qәpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz müharibəni ləyaqətlə aparmışıq və düşmənə cavabı döyüş meydanında vermişik

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib.*

*Müsahibəni təqdim edirik.*



**Müxbir**: Cənab Prezident, öncə suallarımızı cavablandırdığınız üçün minnətdarlığımızı bildiririk. Cənab Prezident, dəfələrlə Gəncə şəhərində olmusunuz, şəhərdə xeyli işlər görülüb. Bu işlər barədə fikirlərinizi bilmək istərdik.

**Prezident İlham Əliyev**: Bu, mənim Gəncəyə Prezident kimi 18-ci səfərimdir. Belə çıxır ki, orta hesabla hər il Gəncədə səfərdə oluram. Elə illər olub ki, iki dəfə olmuşam. Həm ona görə ki, Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub. İkincisi, ona görə ki, bir çox layihələr Gəncə şəhərində icra edilib və bu layihələrin icrası davam edir. Gəncə şəhərinin kompleks inkişaf planı həm təsdiqlənib, həm də uğurla icra edilir. On səkkiz ildir ki, mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam.

Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışdıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapdı. Elektrik enerjisi ilə təchizat tam öz həllini tapmışdır. Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir edilib. Onların enerji istehsalı gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda, şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınacaqdır.

Qazlaşdırma layihəsi tam icra edilibdir. İçməli su layihəsi hələ ki, icra edilir. Əfsuslar olsun ki, bu layihə bir qədər uzandı. Düzdür, çox genişmiqyaslı layihədir, həm də maliyyətutumlu layihədir, təqribən 800 milyon manat dəyərində olan bir layihədir. Bu layihənin icrası nəticəsində Gəncə şəhərinin içməli su və kanalizasiya problemləri birdəfəlik həll olunacaq. Mənə verilən son məlumata görə, hazırda bu layihənin icrası 42 faiz səviyyəsindədir. Əlbəttə, əlavə tapşırıqlar veriləcək ki, bu layihənin icrası sürətləndirilsin, Gəncə şəhərinin bu problemi də öz həllini tapsın.

Avtomobil yollarının çəkilişi ilə bağlı deyə bilərəm ki, indi bütün ölkədə olduğu kimi, Gəncəyə gedən yollar tam müasirləşdirilib. Həm Bakı-Gəncə avtomobil yolunun, həm də Gəncə-Qazax-Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb. İndi biz bu yolu iki zolaqdan dörd zolağa genişləndiririk. Eyni zamanda, Gəncədən digər şəhərlərə - Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılmışdır.

Bildiyiniz kimi, Gəncəyə Bakıdan dəmir yolu xətti də tam modernləşdirilib. Bu, əslində, Şərq-Qərb nəqliyyat dəhlizinin bir parçasıdır. İndi xəttə sürətli qatarlar da buraxılıb. Dünyanın aparıcı İsveçrə şirkəti tərəfindən istehsal edilən bu qatarlar həm vaxt baxımından çox əlverişlidir, həm də ki, komfortludur. Hazırda Bakıdan Gəncəyə və Gəncədən Bakıya yüksək sürətli qatarlar işləyir. Bu, əlbəttə ki, insanların rahatlığı üçün də çox önəmli bir məsələdir. Həm avtomobil yolu ilə rahat gəlmək olur, həm də hava məkanı qonaqlar üçün, Azərbaycan vətəndaşları üçün indi tam müasir səviyyəyə uyğundur. Gəncə Beynəlxalq Hava Limanı uzun illər bundan əvvəl mənim təşəbbüsümlə yenidən qurulmuşdur.

Yəni, bunlar əsas infrastruktur layihələridir. Bunlar həll olunmadan şəhərin inkişafından söhbət gedə bilməzdi. Bununla paralel olaraq, əlbəttə ki, həm səhiyyə, həm təhsil sahəsində bütün sosial infrastruktur yenilənib. Baxın, indi Gəncədə 245 çarpayılıq şəhər xəstəxanası demək olar ki, yenidən tikilib və əlavə 200 çarpayılıq modul tipli xəstəxana quraşdırılıb. Təhsillə bağlı. Şəhərdə 30-dan çox məktəb tikilib və təmir edilib. Bu problemin böyük hissəsi öz həllini tapıb. Dövlət Aqrar Universitetinin iki yataqxanası istifadəyə verilib. Mən hər ikisinin açılışında iştirak etmişəm və tədris korpusu yenidən qurulub. Nəzərə alsaq ki, hazırda ölkə iqtisadiyyatı üçün kənd təsərrüfatı xüsusi önəm daşıyır, bu təhsil mərkəzinin müasirləşdirilməsi, əlbəttə, çox böyük əhəmiyyətə malik idi.

Eyni zamanda, Gəncənin mədəni həyatı çox zəngindir. Həm Dövlət Filarmoniyasının yeni binası tikilib, həm də Dram Teatrının. Yəni, Gəncənin hərtərəfli inkişafı ilə bağlı işlər görülür, o cümlədən parklar, xiyabanlar, istirahət və əyləncə zonaları yenidən qurulur. Görülən bütün bu işlər düzgün müəyyən edilmiş siyasətin nəticəsidir.

Bir də ki, İkinci Qarabağ müharibəsindən sonra Gəncə, eyni zamanda, Kəlbəcər rayonunun inkişafı ilə bağlı öz sözünü deyir və deməlidir. Çünki hazırda bizim Kəlbəcərə yeganə, yəni, rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir. Rahat deyəndə, biz ancaq yaz-yay mövsümlərində də o yoldan rahat istifadə edə bilərik. Çünki qış aylarında yol həm bəzi yerlərdə keçilməz, həm də çox təhlükəli olur. Bu yol faktiki olaraq sovet vaxtında olmayıb, bir cığır idi. Biz qısa müddət ərzində o cığırı genişləndirdik və mən özüm də keçən il o yolla Kəlbəcərə getmişdim, Murov aşırımından keçərək. Hazırda Murov dağının altından böyük - uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni, Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, eyni zamanda, Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcəkdir. Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim hərbi postlarımıza, bizim sərhəd boyunca yerləşən postlara da əsas təchizat buradan gedir. Ona görə Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır.

Əlbəttə ki, şəhərin əhalisi artır. Əhalinin bu artımına və müasir tələblərə uyğunlaşmaq üçün biz, əlbəttə ki, əlavə addımlar atırıq və atacağıq. Eyni zamanda, hazırda Daşkəsən rayonunda dağmədən sənayesinin uğurla inkişafı da böyük dərəcədə Gəncədəki infrastrukturla bağlı olacaq. Çünki orada həm qızıl yataqları, həm də dəmir filizi yataqları mövcuddur. Bu işlərin sürətləndirilməsi üçün əlavə göstərişlər verilib. Dəmir filizi yataqlarından səmərəli istifadə etmək üçün zəncirvari sənaye klasteri yaradılmalıdır. Əlbəttə ki, Gəncənin də burada xüsusi rolu olacaqdır. Bir sözlə, Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının icrası nəticəsində Gəncə şəhəri həmişə xüsusi yerə malik olubdur. Bu gün də belədir, sabah da belə olacaq.

**- Cənab Prezident, bu gün də bir neçə mühüm obyektin açılışını etdiniz. Bu açılışlar nəyi göstərir? Bu açılışlar barədə nələri deyə bilərsiniz?**

- Əslində, bu açılışlar onu göstərir ki, Gəncənin inkişafı və şəhərin problemlərinin həlli daim diqqət mərkəzindədir. Həm də, onu göstərir ki, baxmayaraq, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzurадır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur. Əgər mənim təkcə bugünkü proqramıma nəzər salsaq, görərik ki, bir çox önəmli obyektin açılışı oldu, təməlqoyma mərasimi oldu. Onların içində, əlbəttə ki, "ASAN xidmət" Mərkəzinin açılışını xüsusilə qeyd etmək istəyirəm. Bir neçə il bundan əvvəl Gəncədə "ASAN xidmət" Mərkəzi açılmışdır. Ancaq tələbat o qədər böyükdür ki, növbələr yarandı. Əlbəttə ki, "ASAN xidmət"in xüsusiyyətlərindən biri həm şəffaflıqdır, müasir xidmətlərin göstərilməsidir, həm də rahatlıqdır. Ona görə biz xidmətin adını "ASAN" qoymuşuq. Əgər növbə yaranırsa və insanlar saatlarla növbədə dayanırsa, bu, artıq "ASAN xidmət" olmadı. Ona görə mənim göstərişimlə ikinci "ASAN xidmət" Mərkəzi yaradıldı, birincidən daha böyük. Bu xidmət artıq bu gün rəsmən açıldı və bir neçə gündən sonra öz qapılarını vətəndaşların üzünə açacaq. Beləliklə, növbələr artıq aradan götürüləcək.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz müharibəni ləyaqətlə aparmışıq və düşmənə cavabı döyüş meydanında vermişik

(Əvvəli 1-ci səhifədə)

Eyni zamanda, bu gün Gəncə Dram Teatrının açılışı oldu. Təəssüf edirəm ki, pandemiyaya görə teatrın truppası ilə görüşə bilmədim. Ancaq yadımdadır ki, mən bir neçə il bundan əvvəl Gəncədə olarkən teatrın truppasının nümayəndələri şəhərdə dram teatrının tikilməsi ilə bağlı mənə müraciət etmişdilər. Mən də onlara söz vermişdim ki, bu müraciəti nəzərə alacağam. Həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl, möhtəşəm Dram Teatrı açıldı. Yenə də deyirəm, ölkə qarşısında bir çox problemlər var və bu problemlər təxirəsalınmaz həllini gözləyir. Amma buna baxmayaraq, mədəniyyətə, şəhərin, Gəncənin mədəni həyatına töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir. Necə ki, bir neçə il bundan əvvəl Gəncə Filarmoniyası açıldı. Baxın, bu filarmoniyanın açılması Gəncə şəhərinin mədəni həyatına nə qədər töhfə veribdir, eyni zamanda, şəhərin ümumi görünüşünə gözəl töhfə olubdur. Çünki memarlıq baxımından çox gözəl bir binadır. Dram Teatrı da çox möhtəşəm binadır və orada artistlər, truppa üzvləri və tamaşaçılar üçün gözəl şərait yaradılıb.

Bu gün, eyni zamanda, Gəncə İdman Sarayının tikintisi ilə tanış oldum. Bu sarayı da mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu, çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki, Bakı şəhərində bir çox idman sarayları var, - ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur. Burada isə həm döyüş idman növləri, güləş, boks, həm məktəblər - güləş məktəbi, boks məktəbi, həmçinin əl oyunları üçün xüsusi zal - basketbol, voleybol, həndbol, 50 metrlik üzgüçülük hovuzu, yardımçı otaqlar və zallar, otel. Yəni, bir daha demək istəyirəm ki, bu, ölkəmizin ən böyük idman sarayıdır. Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir. Onu da bildirməliyəm ki, hələ mən Prezident olmadığım dövrdə, Milli Olimpiya Komitəsinin prezidenti kimi Gəncədə Olimpiya Mərkəzinin yaradılması ilə bağlı təşəbbüslə çıxış etmişdim və o idman qurğusu o vaxt inşa olunub. Ancaq illər keçdikcə, əlbəttə ki, bu idman obyekti həm fiziki, həm mənəvi cəhətdən köhnəlib və orada normal məşq etmək üçün şərait o qədər də uyğun deyildi. Amma bu idman sarayı əminəm ki, gələn ilin sonuna qədər istifadəyə veriləcək, həm idmançılar, həm də şəhər sakinləri üçün çox faydalı olacaq. Çünki mən hesab edirəm və haqlıyam ki, hər bir insan idmanla məşğul olmalıdır. Yəni, bu obyektlərin açılması və təməlinin qoyulması, əlbəttə ki, şəhərə olan qayğının təzahürüdür.

Gəncədə lokomotiv deposunun yaradılması artıq başa çatıb. Buna da çox böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, Gəncədən Şərq-Qərb nəqliyyat dəhlizi keçir. Bakıda bu yaxınlarda lokomotiv deposu açılmışdır, ikinci depo isə Gəncədə açıldı. Görün, bugünkü proqramın nə qədər böyük əhatə dairəsi var. Bütün bu açılışlar və təməlqoyma mərasimləri göstərir ki, ölkəmizin hər bir yerində inkişaf getməlidir, davam etməlidir, biz əldə olunmuş nailiyyətlərlə kifayətlənməməliyik, yalnız irəliyə getməliyik və bütün gücümüzü səfərbər edib insanlar üçün daha yaxşı həyat şəraiti yaratmalıyıq.

**- Cənab Prezident, bu gün Siz, eyni zamanda, Vətən müharibəsi ərzində erməni faşist ordusu tərəfindən dağıdılmış ərazidə Memorial Kompleksin təməlini qoydunuz. Bununla bağlı fikirlərinizi bilmək istərdik.**



- Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bax, bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq, əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb. Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idi. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak oldu. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm "Toçka-U", həm "SCUD" raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub. Yəni, bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır. Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik. Gəncə və digər şəhərlər - Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir.

Ermənistan isə döyüş meydanında məğlub olaraq, 10 min fərari verərək, tamamilə biabır olaraq, görün, hansı çirkin əməllərə əl atıb bizi dayandırmaq istəyirdi. Amma Azərbaycan xalqı, hətta bu dağıntılar altından çıxan insanlar, qanın içində olan insanlar, öz yaxınlarını itirmiş insanlar da deyirdilər ki, biz ancaq qabağa getməliyik. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, məğlub etdik. Erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik.

Bu gün, burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək. Bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq. Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni, bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın.

**- Cənab Prezident, bildiyimiz kimi, bu günlərdə Rusiyada erməni faşist Qaregin Njde haqqında filmin yayımı dayandırıldı, aradan qaldırıldı. Bu məsələni Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətin nəticəsi kimi dəyərləndirmək olarmı? Bu barədə də fikirlərinizi bilmək istərdik?**

- Mən hesab edirəm ki, ilk növbədə, Rusiya ictimaiyyəti bundan xəbərdar oldu və Rusiya ictimaiyyətinin təkidi nəticəsində bu biabırçı aksiya baş tutmadı. Ancaq o da həqiqətdir ki, ilk dəfə olaraq, bu məsələni siyasi müstəviyə gətirən mən olmuşam. Mən əvvəlki illərdə də dəfələrlə bu erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışdım. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan vermək olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub. Bu adam cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci Dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib. Bu Njde faşistdir və bunu hər kəs bilməlidir. Ancaq Ermənistanda onun qəhrəmanlaşdırılması gedir. Əgər bu, təkcə əvvəlki faşist hakimiyyətlə bağlı olsaydı, dərd yarı idi. Ancaq əfsuslar olsun ki, indiki Ermənistan hakimiyyəti faşistləri təbliğ edir, onları müdafiə edir. Moskvada ermənilərin diaspor təşkilatının xətti ilə bu dözülməz aksiyanın keçirilməsi heç bir çərçivəyə sığmır. Çünki Rusiya özü faşizmin qəhrəmanlaşdırılmasına qarşı gedən mübarizədə ön sıralardadır, Azərbaycan kimi. Bu məsələ ilə bağlı Rusiya tərəfi ilə dəfələrlə fikir mübadiləsi olub. Prezidentlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində, ictimai təşkilatlar səviyyəsində biz həmfikirik. Faşizmin baş qaldırmasına yol vermək olmaz. İkinci Dünya müharibəsinin tarixi ilə bağlı təhrifetmə cəhdlərinə son qoyulmalıdır. Bu siyasət dünyanı uçuruma aparacaq. Faşizmi qəhrəmanlaşdırmaq olmaz. Amma bir tərəfdən Ermənistan rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır. Bu günə qədər Ermənistanda, İrəvanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var, ona böyük - altımetrlik abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib.

Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, erməni faşizmi yaşayır. Bəli, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsində biz erməni faşizmini məğlub etmişik. Deyə bilərəm ki, erməni faşistlər indi əvvəlki illərdəki qədər fəal deyillər. Ancaq biz görürük ki, faşizm baş qaldırır, Ermənistanda baş qaldırır. Ermənistanın keçmiş faşist rəhbərləri, uşaq qatilləri Sarkisyan, Köçəryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar. Biz onları məğlub etmişik. Onlar bizim qabağımızda diz çöküblər. Onlar tarixdə fərari kimi qalacaqlar. O cümlədən erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Köçəryan fərarilər kimi qalacaqlar. Çünki Azərbaycan Ordusu Şuşaya yaxınlaşdıqca onlar Xankəndidən qorxaqcasına, dovşan kimi qaçmışdılar. Amma indi Ermənistanda baş qaldırırlar, Rusiyada baş qaldırırlar. Rusiyanın paytaxtında erməni diaspor təşkilatının xətti ilə belə biabırçı aksiyanın təşkili dediyim sözlərin sübutudur. Biz erməni faşizmini məğlub etdik, ancaq o, məhv edilməyib. Biz bundan sonra da çalışacağıq ki, erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır. Ancaq gərək digər ölkələr də, beynəlxalq ictimaiyyət də bu məsələdə həmrəy olsun. Erməni faşizminin XXI əsrdə törətdiyi bu dağıntılar hamı üçün gərək bir nümunə olsun ki, faşizmin yaxşısı, pisi yoxdur. Erməni havadarları, Ermənistanın arxasında dayanan dairələr də bunu bilməlidirlər, dərk etməlidirlər və bizim tarixi missiyamızı qiymətləndirməlidirlər, biz hansı bəlanı məhv etdik. Biz təkcə öz torpağımızı azad etmədik, biz regionu, Cənubi Qafqazı bu vəhşi xislətli qüvvələrdən təmizlədik. Yenə də deyirəm, indi onlar artıq boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir.

**- Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınız üçün Sizə təşəkkür edirik, minnətdarıq.**

- Sağ olun.

# Azərbaycan Respublikasının müdafiə nazirinin Türkiyəyə işgüzar səfəri



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 1-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbiri ziyarət edib.

Azərbaycanın Müdafiə Nazirliyinin nümayəndə heyəti Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

Müdafiə naziri Xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovu qəbul edib.

Qəbulda Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar da iştirak edib.

* * *

Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 1-də qardaş ölkənin milli müdafiə naziri Hulusi Akar ilə görüşüb.

Görüşdən əvvəl təntənəli qarşılama mərasimi olub, hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçib, dövlət himnləri səsləndirilib.

General-polkovnik Zakir Həsənov Şərəf kitabını imzalayıb.

Daha sonra nümayəndə heyətlərinin də iştirakı ilə görüş olub.

İşgüzar görüşlərdə regional təhlükəsizlik, eləcə də Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Türkiyəli nazir qonaqları salamlayaraq Azərbaycan ilə Türkiyə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu xüsusi qeyd edib. Hulusi Akar qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

General-polkovnik Zakir Həsənov da öz növbəsində Vətən müharibəsində qardaş Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstəyə görə minnətdarlığını ifadə edib. Azərbaycanın müdafiə naziri iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrdə olduğu kimi, hərbi





əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb.

Birgə təlimlərdə hərbçilərimizin qazandığı təcrübənin əhəmiyyətinə toxunan tərəflər bu cür tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini qeyd ediblər.

Görüşlərdə vurğulanıb ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə Türkiyə ilə hərbi əməkdaşlığı daha da genişləndirir. Bu, regiondakı sabitliyi təmin edən əsas amillərdəndir.

Sonda media nümayəndələrinin sualları cavablandırılıb.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə qardaş ölkədə işgüzar səfərdədir.

Fevralın 1-də general-polkovnik Zakir Həsənov Ankarada xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkı ziyarət edib, Ulu Öndərin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.





# Azərbaycan və Türkiyənin müdafiə nazirləri Ankarada birgə mətbuat konfransı keçiriblər

Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyənin milli müdafiə naziri Hulusi Akar fevralın 1-də Ankarada birgə mətbuat konfransı keçiriblər.

AZƏRTAC xəbər verir ki, nazir Hulusi Akar çıxışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə ən yüksək səviyyədə çatan əməkdaşlıq əlaqələrinin davam etdirildiyini xatırladıb. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətinə toxunan Hulusi Akar deyib: "Şuşa Bəyannaməsi yolumuzu, strategiyamızı müəyyən edən sənəddir. Bu sənəd əsasında gördüyümüz işlər var. Hərbi təlim, əməkdaşlıq məsələləri ilə bağlı işlər davam edir. Bu işlərlə birlikdə müdafiə sənayesi, Silahlı Qüvvələrimizin arsenalı ilə bağlı nə edə biləcəyimizi də danışıqlar yolu ilə müəyyən edirik. Biz bu məsələlərdə mühüm addımlar atmışıq və atmaqda davam edirik".

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbəni xatırladan nazir Hulusi Akar bildirib: "Qarabağda genişmiqyaslı işlər görülür. Kənd təsərrüfatından heyvandarlığa, sənayedən yol infrastrukturuna qədər intensiv iş və tikinti aparılır. Bu baxımdan, irəliləyişin necə olacağını, bunun müdafiə və təhlükəsizlik məsələlərində əksini tapmasına dair müzakirələr apardıq. Əhəmiyyətli məsələlərdən biri də prezidentlərimizin görüşündən sonra Ermənistana sülh əlinin uzadılmasıdır. Biz gözləyirik və ümid edirik ki, bu sülh təklifinə düzgün qiymət veriləcək. Bu yolla çalışırıq ki, təkcə Ermənistan ilə Azərbaycan, yaxud Ermənistan ilə Türkiyə arasında deyil, bütün Qafqazda sülh və buna uyğun olaraq firavanlıq hökm sürsün".



Yüksək qonaqpərvərliyə görə Türkiyə tərəfinə minnətdarlığını ifadə edən nazir general-polkovnik Zakir Həsənov deyib ki, biz birgə fəaliyyətimizin istiqamətlərini müəyyən etmişik. Bu səfər çərçivəsində Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında planlaşdırılan tədbirləri müzakirə etdik.

Qırx dörd günlük Vətən müharibəsindən sonra görüləsi işlərin hələ çox olduğunu diqqətə çatdıran general-polkovnik Zakir Həsənov bildirib: "Prezidentimizin tapşırığı ilə Azərbaycan Ordusunun strukturunda Türkiyə Silahlı Qüvvələrinin ordu strukturuna bənzər islahatlar aparırıq. Bu məsələdə Türkiyə Silahlı Qüvvələrinin Azərbaycana davamlı böyük dəstəyi var. Biz bu istiqamətdə xeyli yol qət etmişik".

# Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 2 Fevral - Gənclər Günü münasibətilə tədbir keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Bakı Qarnizonu hərbi hissələrinin şəxsi heyətinin, şəhid ailələri üzvlərinin və müharibə veteranlarının iştirakı ilə Təlim və Tədris Mərkəzində Azərbaycan Ordusu gənclərinin toplantısı keçirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev müdafiə nazirinin salamlarını və təbriklərini toplantı iştirakçılarına çatdırıb.

General-polkovnik Kərim Vəliyev qeyd edib ki, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin iz buraxıb və bu siyasət hazırda Möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Bildirilib ki, Prezidentimiz gənclərin bilik və bacarıqlarının təkmilləşdirilməsi, onların vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, habelə gənclər təşkilatlarının formalaşmasına və inkişafına böyük diqqət yetirir.

"Gənclərin hərbi xidmətə hazırlanması, onların milli-mənəvi dəyərlər əsasında, intellektual, fiziki və mənəvi tərbiyəsi dövlət başçımızın daim diqqət mərkəzindədir. Məhz Vətən sevgisi Azərbaycan gənclərini torpaqlarımızın işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda gedən döyüşlərə qatılmağa sövq etdi", - deyə Baş Qərargah rəisi bildirib.

O vurğulayıb ki, gənclərimiz Azərbaycan Ordusunda xidmət keçməkdən şərəf duyur və qarşıya qoyulan bütün vəzifələri ləyaqətlə yerinə yetirirlər. "Hərbi xidmətdə olan gənclərimiz cəmiyyətin aparıcı qüvvəsi olaraq, Vətən və xalq qarşısında öz müqəddəs borclarını dərindən dərk edirlər. Səngər və döyüş mövqelərində xidmət edən zabit və əsgərlərimizin yüksək peşəkarlığı sayəsində ölkəmizin ərazisi, dəniz və hava məkanı etibarlı qorunur".

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi adından ordu gənclərinə xidmətlərində uğurlar və yeni nailiyyətlər arzulanıb.

*Gənc zabitlərimiz*

## Düşmən "Dəmir yumruğ"un gücünü gördü

2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!" deyərək, bütün dünyaya xalqımızın mənfur erməni işğalı ilə barışmayacağını bir daha bildirdi. Dəfələrlə Azərbaycan Ordusunun nəinki bölgədə, hətta dünyada güclü ordular sırasında yer aldığını vurğulayan Ali Baş Komandan 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatına cavab olaraq başlayan "Dəmir yumruq" əks-hücum əməliyyatına sərkərdəlik edərək Zəfər qazandı. Bu Zəfər bütün dünyaya Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin peşəkarlıq və yüksək döyüş hazırlığını nümayiş etdirdi.

"N" hərbi hissəsində kapitan Əli Camalzadə ilə söhbətimiz Vətən müharibəsindən və yaradılan şəraitdən oldu.



Kapitan Ə.Camalzadə uşaqlığından söhbət açaraq, hələ kiçik yaşlarından zabit olmaq arzusunda olduğunu bildirdi. "Vətənpərvərlik, millətinə və dövlətinə bağlılıq kimi hissləri cəmiyyətimiz uşaqlıqdan aşılayır. Bu xüsusiyyət bizi digər millətlərdən fərqləndirir. Azərbaycanlı olmaq - Vətəninə bağlı olmaq deməkdir", - zabit dedi.

O, ilkin hərbi təhsilini ulu öndər Heydər Əliyevin təməlini qoyduğu Cəmşid Naxçıvanski adına hərbi liseydə aldığını vurğuladı. "Həyatımı Vətənimin müdafiəsinə həsr etmək qərarını alanda yaşım az idi. 2010-cu ildə hərbi liseyi bitirib, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldum. Nəhayət, arzum gerçəkləşdi və leytenant hərbi rütbəsinin məsuliyyətini çiynimdə daşıdığım gün həm mənim üçün, həm də ailəm üçün böyük fəxr idi".

Vətən müharibəsindən danışan zabit ərazi bütövlüyümüzün bərpası uğrunda gedən döyüşlərin iştirakçısı olduğunu da qeyd etdi. "Aprel döyüşləri nankor qonşularımıza dərs olmadı. Onlar yenidən təxribatlara əl atdılar. Amma erməni unutmuşdu ki, qarşısında "Dəmir yumruq"lu Müzəffər Ali Baş Komandanı olan xalq var. Ədalət bərpa, haqq isə bərqərar olundu", - deyən kapitan Əli Camalzadə sözünü bitirdi.

Əli Rauf oğlu Camalzadə xidmət etdiyi hərbi hissənin qarşısına qoyduğu döyüş tapşırığını layiqincə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

## Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adı və Prezident təqaüdünün təyinatına başlanıldı

Prezident İlham Əliyevin 2021-ci il 29 dekabr tarixli Sərəncamının icrası olaraq Vətən müharibəsinin iştirakçılarına "Müharibə veteranı" adı və Prezidentin aylıq təqaüdünün təyinatına başlanılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ilkin olaraq Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən Nazirlər Kabineti ilə razılaşdırılmış siyahı əsasında həmin qurumların 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş hərbi qulluqçularına "Müharibə veteranı" adı verilib.

DSX üzrə iştirakçılar barədə məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Zəfər" altsisteminə daxil edilib.

Nazirlik tərəfindən isə altsistemə barələrində məlumat daxil edilmiş həmin hərbi qulluqçulara 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (80 manat) təyin edilib.

Təqaüdlərin təyinatı hərbi qulluqçuların müraciəti olmadan, heç bir sənəd təqdim edilmədən, e-sistem üzərindən proaktiv qaydada aparılır. Təyin edildiyi tarixdən asılı olmayaraq təyinat tarixi 2022-ci il yanvarın 1-dən rəsmiləşdiriləcək ödənilir.

Hazırda digər qurumlar (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və s.) üzrə də qeyd olunan adın verilməsi və təqaüd təyinatının aparılması üçün aidiyyəti işlər aparılır.

Vətən müharibəsinin bütün iştirakçılarına "Müharibə veteranı" adının verilməsi və Prezidentin aylıq təqaüdünün təyinatı prosesi yaxın günlərdə tam yekunlaşacaq.

Müharibə veteranı kimi Prezidentin aylıq təqaüdü təyin edildiyi andan şəxsin adında olan telefon nömrəsinə bu barədə, habelə təqaüd kartını hansı bankdan əldə edəcəyinə dair SMS göndəriləcək.

# Naxçıvan Qarnizonu Qoşunlarında 2021-ci tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirildi

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığına əsasən, 2021-ci tədris ilini uğurla başa vuran Naxçıvan Qarnizonu Qoşunlarında 2022-ci yeni tədris ilinə hazırlıq planına uyğun olaraq müxtəlif ixtisaslar üzrə toplantılar keçirildi. Komandir heyətinin bilik və bacarıqlarının, nəzəri və praktiki vərdişlərinin təkmilləşdirildiyi toplantılara müxtəlif ixtisaslı və kateqoriyalı komandirlərlə yanaşı, komandir müavinləri də cəlb edildi. Toplantı iştirakçılarından ümumqoşun, ixtisas və fiziki hazırlıqdan məqbullar götürüldü. 2022-ci tədris ilinə hazırlıq tədbirləri çərçivəsində birləşmə və hissələrdə şəxsi heyətə sıra baxışı keçirilərək, bölmələrin maddi-tədris bazaları və tam təchizatı yoxlanıldı.*





Toplantılar başa çatdıqdan sonra 2021-ci tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirildi. Müşavirədə əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Ordu quruculuğundan bəhs edən "Ordumuz qürurumuzdur" adlı film nümayiş olundu.

Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayev 2021-ci tədris ilində həyata keçirilmiş tədbirləri təhlil edərək bildirdi ki, ümummilli liderimiz Heydər Əliyevin "Ordu quruculuğu Vətənə sevgidir, dövlətə və dövlətçiliyə sədaqətdir" prinsipi ilə müəyyənləşdirdiyi vəzifələr bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Yola saldığımız 2021-ci il ölkəmizin tarixində ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahələrdə, o cümlədən ordu quruculuğu işində yeniliklərlə yadda qaldı, Zəfər Gününün birinci ildönümünü təntənə ilə qeyd etdik və qalib xalq olaraq bir daha qürur hissi keçirdik. Ötən il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodrom kompleksinin və Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının açılışını etməsi, burada yaradılan şəraiti və eləcə də Vətən müharibəsi zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının göstərdikləri şücaəti yüksək qiymətləndirməsi 2021-ci ilin yaddaqalan hadisələrindəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun diqqət və qayğısı ilə Naxçıvan Qarnizonu Qoşunlarının döyüş potensialı, imkan və qabiliyyəti daha da artırılıb, birləşmə və hissələrin müasir silah və texnikalarla təmin olunmasına xüsusi diqqət yetirilib. Yola saldığımız 2021-ci il ərzində hərbi infrastrukturun yenilənməsi istiqamətində tədbirlərin uğurla davam etdirilməsi və yüksək dağlıq şəraitdə yerləşən hərbi hissələr də daxil olmaqla yeni hərbi obyektlərin istifadəyə verilməsi müdafiə qüdrəti durmadan artan muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərin məntiqi davamıdır. Ötən il həyata keçirilən tədbirlər sırasında Naxçıvan Qarnizonu Mərkəzi Hərbi-Həkim Komissiyasının (həkim-uçuş komissiyasının) fəaliyyətə başlaması və Naxçıvan Dövlət Universitetinin Tibb Fakültəsində "Hərbi həkim" ixtisasının yaradılması mühüm yer tutur".

Azərbaycan-Türkiyə dostluq əlaqələrindən və hərbi əməkdaşlığından danışan Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayev ötən ilin iyun ayında Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanları ilə birgə taktiki-xüsusi təliminin keçirildiyini diqqətə çatdırdı. "Təlimi izləyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Türkiyə Respublikasında pilotsuz uçuş aparatı sistemləri kursunu müvəffəqiyyətlə bitirən zabit və gizir heyəti ilə görüşüb, "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatının praktiki uçuşlarının idarəedilməsini izləyib, Döyüşü İdarəetmə Mərkəzi və Coğrafi Analiz Sisteminin imkanları ilə tanış olub".





Müşavirədə Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini - qərargah rəisi general-leytenant Fazil Ağalarovun qoşunların fəaliyyətlərinin ayrı-ayrı istiqamətləri üzrə məruzəsi dinlənildi.

General-leytenant Fazil Ağalarov Türkiyə Respublikasının Qars şəhərində keçirilən "Qış-2021" və Naxçıvanda keçirilən "Sarsılmaz qardaşlıq-2021" birgə təlimlərində birləşmə və hissələrin şəxsi heyətinin yüksək peşəkarlıq və əzmkarlıq nümayiş etdirdiyini vurğuladı. Şəxsi heyətin hərbi-peşəkar hazırlığının və döyüş qabiliyyətinin yüksəldilməsinin, müdafiənin etibarlı və zəmanətli təmin edilməsinin 2021-ci tədris ilində Naxçıvan Qarnizonu Qoşunlarının əsas tapşırığı olduğunu qeyd edən general-leytenant Fazil Ağalarov "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı" haqqında ətraflı məlumat verdi.

Məruzə ətrafında müzakirələr zamanı Naxçıvan Muxtar Respublikası Föv-qəladə Hallar nazirinin müavini general-mayor Hikmət Kərimov, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri general-mayor Səlim Niftəliyev, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası komandirinin birinci müavini - qərargah rəisi polkovnik Muxtar Həmzəyev və Əlahiddə Ümumqoşun Ordu komandanının müavinləri 2021-ci tədris ilində görülmüş işlər və 2022-ci tədris ilində qarşıda duran vəzifələrlə bağlı məruzə və təkliflərlə çıxış etdilər.

Ötən tədris ilində bütün tapşırıq və vəzifələrin tam həcmdə yerinə yetirildiyini qeyd edən Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayev 2022-ci tədris ilində qarşıda duran məqsəd və vəzifələrə dair Ali Məclis sədrinin tapşırıqlarını diqqətə çatdıraraq müşavirəyə yekun vurdu.

Sonda döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr əldə edən bir qrup hərbi qulluqçuya müxtəlif adda medallar təqdim olundu.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

## Müdafiə Nazirliyinin əsgər valideynləri və yaxınlarına müraciəti

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, son günlər ölkədə COVID-19 virusuna yoluxma sayında artımın müşahidə edildiyi nəzərə alınaraq, Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların valideynləri və yaxınları ilə görüşü müvəqqəti qadağan olunub.

Hərbi qulluqçuların sağlamlığının qorunması və xəstəliyə yoluxma riskinin qarşısının alınması məqsədilə əsgər valideynləri və yaxınlarına hərbi hissələrə gəlməməyi, xüsusilə də fevralın 6-da keçirilməsi planlaşdırılan andiçmə mərasimlərində iştirak etməməyi tövsiyə edirik.

Vətəndaşlarımızı ordumuzda tətbiq olunan tibbi təminat tədbirlərini anlayışla qarşılamağa və karantin qaydalarına ciddi riayət etməyə çağırırıq.

# Şəhid baş leytenant Fuad Bağırov Şirvan şəhərində dəfn olunub





Baş leytenant Fuad Bağırovun nəşi fevralın 1-i günorta saatlarında Şirvan şəhərinə gətirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhidin nəşi izdihamla qarşılanıb və onun doğulub boya-başa çatdığı evdə vida mərasimi keçirilib.

Sonra şəhidin nəşi dəfn üçün Şəhidlər xiyabanına gətirilib.

Yaylım atəşi altında şəhid baş leytenant Fuad Bağırov torpağa tapşırılıb.

Dəfn mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Müdafiə Nazirliyinin, yerli icra və hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, baş leytenant Fuad Bağırov qarlı hava şəraiti nəticəsində Kəlbəcər rayonunun Alagöllər ərazisində itkin düşmüşdü. Onun nəşi üç gün aparılan axtarışlardan sonra tapılıb.

Fuad Bağırov 1991-ci il noyabrın 3-də Şirvan şəhərində doğulub. 2009-2013-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb və ordu sıralarında xidmət edib.

Ailəsi ilə birlikdə Gəncə şəhərində yaşayan Fuad Bağırovun bir oğlan və bir qız övladı yadigar qalıb.

# Komandoların hazırlığına xüsusi diqqət yetirilir







Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, ordumuzda həyata keçirilən islahatlar çərçivəsində yeni yaradılan Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrində xidməti döyüş fəaliyyətinin təşkilinə xüsusi diqqət yetirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, komando hərbi hissələrində bütün obyektlər müasir tələblərə uyğun inşa edilib, lazımi avadanlıq və inventarlarla təchiz olunub. Burada xidməti döyüş fəaliyyətlərinin keyfiyyətli təşkili və asudə vaxtın səmərəli keçirilməsi üçün müvafiq şərait yaradılıb.

Yaradılan şərait döyüş hazırlığı planına əsasən komandolarla yüksək səviyyədə intensiv təlim-məşqlərin keçirilməsinə imkan verir.



Vətən müharibəsində əldə edilmiş təcrübələr nəzərə alınmaqla, türkiyəli peşəkar zabitlərin iştirakı ilə komandoların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və praktiki vərdişlərinin təkmilləşdirilməsi təmin edilir.

Real döyüş şəraitinə maksimum uyğunlaşdırılmış şərtlərlə keçirilən məşğələlərdə komandolar kəskin relyefli ərazilərdə hərbi helikopterlər və digər üsullarla yerdəyişmələr icra edirlər.

Təlimlər zamanı komandolar birbaşa təmas vəziyyətində maneələr zolağından keçid, dağlıq ərazilərdə döyüş aparma, müdafiənin dərinliyinə sızma, eləcə də şərti düşmənin müvəqqəti yerləşdiyi sığınacaqlarda və yaşayış məntəqələrində müqavimət göstərən təxribat-diversiya qrupunu mühasirəyə alma, zərərsizləşdirmə tapşırıqlarını müvəffəqiyyətlə icra edirlər.



# Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı başa çatıb

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, ehtiyatda olan bir qrup hərbi vəzifəlilərin cəlb olunması ilə "N" hərbi hissəsində keçirilən təlim toplanışları başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanışın əsas məqsədi Vətən müharibəsində əldə edilən təcrübələr nəzərə alınmaqla hərbi vəzifəlilərin döyüş vərdişlərini təkmilləşdirməklə yanaşı, ordumuzun arsenalındakı müasir silah və hərbi texnikalar ilə yaxından tanış etmək, istismar qaydalarını, döyüş tətbiqi üsullarını öyrətməkdir.

Toplanışa cəlb olunan hərbi vəzifəlilər müxtəlif çaplı atıcı silahlardan praktiki atəş çalışmalarını yerinə yetiriblər.

İştirakçılara hücum və müdafiə döyüşlərinin əsasları, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqədə əməliyyatların aparılması üsulları öyrədilib. Tank bölmələri ilə birgə şərti düşmən mövqelərinin ələ keçirilməsi və ərazidə yenidən təртiblənmə üzrə tapşırıqları yerinə yetiriblər.

Təlim-məşqlərin senarisinə uyğun olaraq yaşayış məntəqələrində axtarış və aşkar olunan kəşfiyyat-diversiya qruplarının zərərsizləşdirilməsi üzrə döyüş tapşırıqları da icra olunub.



Təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

Toplanış konsert proqramı ilə başa çatıb.

# Torpaq uğrunda verdilər ki can, yaşasın Azərbaycan!



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edərək şəhidlik zirvəsinə yüksələn Vətən övladlarının xatirəsinə ehtiram məqsədilə anım mərasimləri keçirilib. Vətən müharibəsi şəhidləri Nəcəf Şikarovun, Sənan Kərimovun, Elvin Əlimovun, Elzar Yusubovun, İsmayıl Mehdiyevin, Tamerlan Mahmudovun, Ruhid İslamlının, Mehrac Əhədovun və Vətən Müharibəsi Qəhrəmanı şəhid Azad Hümbətovun xatirəsinə həsr olunan tədbirlərdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, dostları, eləcə də döyüş yoldaşları iştirak edirlər.



Anım mərasimlərində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Şəhidlərin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarxlar təqdim olunub.

"Torpaq uğrunda verdilər ki can, yaşasın Azərbaycan!" deyərək çıxışına başlayan şəhid anası Təranə Şükürova oğlu Ruhid İslamlının ömür yolundan söz açaraq dedi:

- Oğlum Ruhid vətənpərvər idi. Əsgəri xidmətini cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində yerinə yetirirdi. 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində Vətən müharibəsi başlananda onların bölüyü də döyüşlərə cəlb edildi. Ruhid də hər bir azərbaycanlı kimi yurdumuzu işğaldan azad görmək arzusu ilə yaşayırdı. O, Murovdağ və Suqovuşan istiqamətində vuruşdu. 6 oktyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Vətən müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Yaxın qohumu Jalə Atayeva şəhid Tamerlan Mahmudovun ömür və döyüş yolu barədə mərasim iştirakçılarına məlumat verdi:

- Tamerlan kiçik yaşlarından musiqiyə böyük maraq göstərirdi. 2013-cü ildə Tamerlan Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün ordu sıralarını yollanaraq xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirdi. Vətən müharibəsi başlanan kimi Tamerlan da yurdumuzun müdafiəsinə yollandı. 18 oktyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhid oldu. Vətən müharibəsində göstərdiyi igidliyə və cəsarətə görə Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə Mahmudov Tamerlan Fuad oğlu "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medallarına layiq görülüb.



Şəhid Əhədov Mehrac İntiqam oğlunun anası Gülarə Əhədova da çıxış edərək övladının keçdiyi döyüş yolundan danışdı:

- Vətən müharibəsi başlananda - sentyabrın 27-də Mehrac da döyüşlərə yollandı. Füzuli rayonu uğrunda döyüşlərə qatıldı. Yağıları yurdumuzdan qovanların sıralarında oldu. Oktyabrın 21-də Mehrac müdafiəsinə qalxdığı Vətən torpaqlarının azadlığı uğrunda şəhid oldu. Döyüşlərdə göstərdiyi igidliyə görə oğlum Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb. Mehrac xalqımızın qəlbində həmişə yaşayacaq.

Şəhid anası Ətrabə Kərimova "şəhidlər unudulmur, unudulmayacaq", - deyərək oğlu Sənanın qəhrəmanlığından danışdı:



- 44 günlük Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun şücaəti, qəhrəmanlığı sayəsində Qələbə ilə başa çatdı. Azərbaycanın müasir qəhrəmanlıq salnaməsinə çevrilmiş bu tarix indi dildən-dilə dolaşır. Bu salnamənin unudulmayacaq fatehləri - şəhidlərdir.

Bəzi hissləri sözlərlə ifadə etmək mümkünsüzdür. Bir ana üçün övlad itkisinin yaşatdığı ağrı izahedilməzdir. Lakin bu ağrını oğlumun Vətənimizin, torpaqlarımızın azad olunması uğrunda şəhid olması yüngülləşdirir. Oğlum Azərbaycanın şanlı tarixini yazanların sırasında elə bir zirvəyə yüksəldi ki, hər birimiz o zirvəyə həsrətlə baxırıq. Onlar ölümsüzlüyü qazandılar...

Oğlumun uşaqlıqdan ən böyük arzusu torpaqlarımızın düşmən tapdağından azad olunmasını, üçrəngli bayrağımızın Qarabağda dalğalanmasını görmək idi. Bu gün balamın ürəyinin üstündə gəzdirdiyi üçrəngli müqəddəs bayrağımız işğaldan azad edilən kəndlərimizdə, şəhərlərimizdə dalğalanır. Bu bir ana olaraq mənim üçün ən böyük təsəllidir...

Baş leytenant Elvin Əlimovun anası İradə Əlimova Vətənin bütün şəhid oğullarının döyüş meydanlarında göstərdikləri fədakarlıqları, qəhrəmanlıqları ilə fəxr etdiyini dedi: "Valideyn üçün övlad itkisi ağır dərddir. Lakin bilində ki, sənin övladın Vətən, torpaq uğrunda döyüşüb, canından keçib, şəhidlik məqamına yüksəlib, bax, onda onun şərəfli ölümü hər bir valideynə qürur hissi yaşadır. O övlad artıq tək sənin deyil, bütün Azərbaycan xalqının övladıdır. Mən keçirilən anım mərasimlərində bütün şəhid analarının adından danışmışam. Çünki onların ürəklərindən keçənləri, demək istədiklərini mən çox yaxşı bilirəm. Oğul düşmən çəpəridir. Oğul Vətən üçün doğulur. Vətənin dar günündə oğullar əlinə silah alıb, torpağı yağılardan qoruyurlar. Xalqımız hər zaman belə oğulları ilə fəxr edib. Tariximizin ən şərəfli səhifələrini onlar yazıblar.



"Xalqımızın 30 illik həsrətinə son qoyan igid, qəhrəman oğulların anaları, başımızı hər zaman uca tutacağıq", - deyən şəhid leytenant Elzar Yusubovun anası Günəş Daşdəmirova vurğuladı ki, övladlarımız Vətənimizin bütövlüyü naminə canlarından keçib, tariximizdə yeni səhifələr açdılar. "Tarix yazan oğullar xalqımıza Vətənimizin bütövlüyünü qaytardı. Onlar Qarabağımızı, Şuşamızı, Ağdamımızı, digər torpaqlarımızı azad edərək bizə qaytardılar. Xalqımıza Qələbə sevincini onlar yaşatdılar. Doğma el-obasından məcburi köçkün düşən soydaşlarımız, nəhayət ki, torpaqlarına qovuşdular. Mən bir şəhid anası kimi fəxr edirəm ki, Qələbənin qazanılmasında Elzarın da əməyi var. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onlar Vətənimizin bütövlüyü, torpaqlarımızın azadlığı naminə canlarından keçdilər. Vətənə əsl oğul oldular".



Baş leytenant Azad Hümbətovun atası Arif Hümbətov oğlunun şəhidlik zirvəsinə ucalmasından fəxr duyduğunu dedi: "Şəhadətə qovuşmaq hər adamın qismətində olmur. Şəhidlər seçilmiş insanlardır. Vətən müharibəsində göstərdiyi şücaətə və igidliyə görə oğlum Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamına əsasən, "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü".

Kapitan Nəcəfin əmisi Rüzgar Şikarov - "Şəhidlik əbədilikdir", - deyərək sözə başladı:

- Dilimizdə "Şəhidlər ölməz, Vətən bölünməz" kəlamı da var. Doğma torpaqlarımız uğrunda insanın vücudu ölürsə, onun adı, xatirəsi hər zaman xalqın ürəyində yaşayır. Nəcəf də əbədi yaşayacaq. O öz doğma Azərbaycanını müdafiə edərkən həlak oldu, şəhadətə qovuşdu. Onu tanıyan hər kəs bilirdi ki, Nəcəf vətənpərvər, andına sadiq, qürurlu, qorxmaz oğul idi. Güclü idi Nəcəf və bu güc, bu iradə ona hər zaman inamlı qalmağa yardımçı olurdu. O inanırdı ki, azərbaycanlılar doğma Qarabağımıza qayıdacaqlar. Hər bir hərbçi kimi, o da ömrünü bunun üçün yaşadı. Artıq demək olar ki, Nəcəf həyatının ən vacib xəyalını gerçəkləşdirdi.

Şəhid ailələri çıxışları zamanı övladlarının xatirəsini əziz tutduqlarına görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.

Anım mərasimlərinin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən mahnılar ifa etdilər.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV,**
**Lalə HÜSEYNOVA,**
**Vahid MƏHƏRRƏMOV,**
**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda yeni tədris dövrü başlayıb

2022-ci ilin fəaliyyət planına uyğun olaraq Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrü başlayıb. Azərbaycan Ordusunda təlim-tədris prosesi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qarşıya qoyduğu tələblərə, müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq döyüş hazırlığının yüksək səviyyədə saxlanmasını təmin etmək məqsədilə quruda, dənizdə, havada real təhdid və risklərin nəzərə alınması ilə keçiriləcək.



2022-ci yeni tədris ilinin başlanması ilə əlaqədar keçirilən mərasimlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



* * *

Naxçıvan Qarnizonu Qoşunlarında 2022-ci yeni tədris ilinin başlanması ilə əlaqədar keçirilən təntənəli mərasimlərdə ötən tədris ilində şəxsi heyətin hərbi-peşəkar hazırlığının və fiziki dözümlülüyünün, heyət, bölmə, hissə və birləşmələrin, idarəetmə orqanlarının hazırlığının yüksəldilməsi, eləcə də təyinata uyğun döyüş və digər tapşırıqların yerinə yetirilməsi üçün tələb olunan səviyyədə təkmilləşdirilməsi tapşırıqlarının və ümumilikdə planlaşdırılmış tədbirlərin tam həcmdə icra olunduğu qeyd edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə yeni tədris ili üçün əsas məqsəd və vəzifələr diqqətə çatdırılaraq "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən məşğələ və təlimlərin davamlı keçiriləcəyi bildirilib. Bölmə komandirləri öhdəçilik götürərək digər bölmə komandirlərini də yeni tədris ilində döyüş hazırlığı üzrə ən yaxşı olmaq üçün yarışlara dəvət ediblər.

Naxçıvan Qarnizonunda qoşunların və qərargahların birgə fəaliyyətinin əlaqələndirilməsi məqsədilə yaradılmış koordinasiya qrupu yerinə yetirilən fəaliyyətlərin təkmilləşdirilməsi üçün birləşmə və hərbi hissələrdə olub, bölmələrin maddi-tədris bazaları, poliqonlar, təlim döyüş texnikaları, ştat kateqoriyasına uyğun olaraq şəxsi heyətin silahı və döyüş təchizatı yoxlanılıb.

Müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı şəxsi heyət tərəfindən vəzifələrin öyrənilməsi, bölmələrin tapşırıqlarının dəqiqləşdirilməsi, həyəcan siqnalı ilə qaldırılması, cəmləşmə rayonlarına çıxarılması, gizli idarə olunması və qəfil ortaya çıxan tapşırıqların icrası üzrə məşqlər və təlimlər müxtəlif səviyyələrdə növbəti bir neçə gündə də davam edəcək.

* * *

Yeni tədris ilinin başlanması ilə əlaqədar Hərbi Dəniz Qüvvələrində də tədbir keçirildi. Tədbirdə Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov çıxış etdi. Kontr-admiral yeni tədris ilində qarşıda dayanan mühüm tapşırıq və vəzifələri şəxsi heyətin nəzərinə çatdıraraq dedi:

- Cənab zabitlər, miçmanlar və matroslar! Sizi yeni tədris dövrünün başlanması münasibətilə təbrik edir, xidmətinizdə uğurlar arzulayıram. Yeni tədris ilində qarşımızda mühüm vəzifələr dayanır. Ölkənin dəniz sərhədlərinin hərbi təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə 2022-ci tədris ilində Hərbi Dəniz Qüvvələrinin hazırlığının əsas istiqamətləri Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin birləşmələri ilə birgə fəaliyyətlərin təkmilləşdirilməsinə, şəxsi heyətə praktiki vərdişlərin aşılanmasına, həmçinin gəmilərin döyüş imkan və qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmədir. Döyüşə hazırolmanın yüksək səviyyədə saxlanması və hərbi hissələrin döyüş tapşırıqlarını yerinə yetirməyə daima hazır olması bütün səviyyələrdən olan komandir və rəis heyəti üçün əsas vəzifə hesab edilməlidir. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş ovqatını yüksəldən amillərdən biri də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən də işğaldan azad olunmuş ərazilərə ardıcıl səfərlər etməsi və hərbi qulluqçularla görüşməsidir. Bu tarixi görüşlərdə xalqımıza sonsuz mübarizə əzmi aşılayan Silahlı Qüvvələrin Ali Baş Komandanı bununla da orduya göstərdiyi böyük diqqət və qayğısını bir daha əyani şəkildə nümayiş etdirir.



2022-ci tədris ilində əsas diqqət Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin nizam-intizamının daha da möhkəmləndirilməsinə, onların peşəkar hazırlığının və fiziki dözümlülüyünün yüksəldilməsinə yönəldilməlidir.

Çıxışlar başa çatandan sonra yeni tədris ilinin başlanması ilə bağlı hərbi hissə komandirlərinə müvafiq tapşırıqlar verildi. Tədbir şəxsi heyətin təntənəli surətdə tribunanın önündən keçməsi ilə başa çatdı.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

"N" hərbi hissəsində yeni tədris dövrünün başlanması ilə əlaqədar mərasim keçirildi. Şəxsi heyətə 2022-ci tədris ilində qarşıda duran əsas məqsədlər çatdırıldı. Bildirildi ki, yeni tədris dövründə də 44 günlük Vətən müharibəsində qazanılan döyüş təcrübəsinin nəzərə alınması zəruridir.

Mayor Samir Nəcəfov çıxışında vurğuladı ki, Azərbaycan Ordusunun döyüş hazırlığı, maddi-texniki təminatı, şəxsi heyətin mənəvi-psixoloji və fiziki hazırlığı daimi artırılır. Dərs prosesində xalqımızın yazdığı qəhrəmanlıq salnamələrinin şəxsi heyətə çatdırılması onların mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsinə xidmət edir. Yeni tədris ilində də qeyd olunan məsələlər daim diqqət mərkəzində saxlanılacaq.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

Kürdəmir Qarnizonunda yeni tədris ilinin ilk həftəsi ənənəvi olaraq birləşmə və hərbi hissələrdə müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı şəxsi heyət tərəfindən vəzifələrin öyrənilməsi, bölmələrin tapşırıqlarının dəqiqləşdirilməsi və müxtəlif variantlar üzrə məşq etdirilməsi ilə başlayıb.

Kürdəmir Qarnizonunda qərargahın birgə fəaliyyətinin əlaqələndirilməsi məqsədilə yaradılmış "Nəzarət qrupu" xəbərdaretmə və məlumat mübadiləsində çevikliyin təmin edilməsi, daxil olmuş məlumatların qəbulu, təhlili, operativ analizi və hər bir siqnal üzrə yerinə yetirilən fəaliyyətlərin alqoritminin müzakirəsi və təkmilləşdirilməsi məqsədi ilə bölmələrdə olub.

Bölmələrin fəaliyyətinə diqqət yetirən "Nəzarət qrupu" aşkar olunan nöqsanları qeyd edib, onların qısa müddətdə aradan qaldırılması üçün bölmə komandirlərinə tapşırıqlar verib.

Qarnizonun döyüş hesabatına uyğun olaraq bölmələrin xəbərdar edilməsi, həyəcan siqnalı ilə qaldırılması, ehtiyat mövqeyə çıxarılması, gizli idarə olunması və qəfil ortaya çıxan tapşırıqların icrası üzrə məşqlər və təlimlər müxtəlif səviyyələrdə növbəti bir neçə gündə də davam edəcək.

**"Azərbaycan Ordusu"**

# İdman

## Şəhriyar Məmmədyarov "Tata Steel Masters" turnirində ikinci yeri tutub



Niderlandın Veyk-an-Zee şəhərində "Tata Steel Masters" şahmat turnirində Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov 13-cü turda ABŞ şahmatçısı Fabiano Karuana ilə heç-heçə edib. Yekun nəticədə Ş.Məmmədyarov 8 xalla ikinci yeri tutub. Turnirin qalibi 9,5 xalla hazırkı dünya çempionu, norveçli Maqnus Karlsen olub.

## Güləşçimiz Birgül Soltanova Rusiyada bürünc medal qazanıb



Rusiyanın Krasnoyarsk şəhərində ikiqat Olimpiya çempionu İvan Yarıginin xatirəsinə keçirilən Qran-Pri turniri davam edir.

Yanvarın 29-da qadın güləşçilərdən ibarət millimizin üzvü Birgül Soltanova (62 kq) fəxri kürsüyə qalxıb. Dörddəbir finalda monqolustanlı Tserençimed Sukxeyə məğlub olan həmyerlimiz rusiyalı Alyona Timofeyevaya "tuşe" ilə qalib gələrək ənənəvi yarışın bürünc medalına sahib olub.

Beləliklə, komandamız turniri 1 qızıl və 1 bürünc medalla başa vurub. Xatırladaq ki, bir gün əvvəl güləşçimiz Alyona Kolesnik (59 kq) yarışda çempion olub.

## Cüdoçumuz Balabəy Ağayev Qran-Pri turnirinin gümüş medalına sahib olub



Azərbaycan cüdoçusu Balabəy Ağayev (60 kq) Portuqaliyanın Almada şəhərində keçirilən Qran-Pri turnirində gümüş medal qazanıb.

Finala qədər bütün rəqiblərinə qalib gələn idmançımız həlledici mərhələdə Cənubi Koreya təmsilçisi Harım Li ilə qarşılaşmada məğlub olaraq gümüş medalla kifayətlənib.

Azərbaycan 41 ölkədən 300-ə yaxın idmançının mübarizə apardığı turnirə 5 cüdoçu ilə qatılıb.

## Azərbaycan atleti Nazim Babayev Almaniyada keçirilən turnirdə gümüş medala sahib olub




Azərbaycan atleti Nazim Babayev Almaniyanın Karlsrue şəhərində keçirilən "World Indoor Tour" (Gold Level) turnirində gümüş medal qazanıb.

Üç təkanla tullanma növündə mübarizə aparan idmançımız 16,76 metr nəticə ilə fəxri kürsünün ikinci pilləsində qərarlaşıb.

N.Babayev Vətən müharibəsində şəhid olmuş hərbçilərin sayını, həmçinin Milli Qəhrəmanlar Mübariz İbrahimovla Polad Həşimovun adlarının yazıldığı vərəqi əlində tutaraq qələbəsini onlara həsr etdiyini göstərib.

Qeyd edək ki, turnirdə birinci yeri yunanıstanlı atlet Andreas Pantazis (16,79 metr) tutub. Almaniyalı idmançı Maks Hess isə 16,71 metr göstərici ilə yarışda üçüncü yeri əldə edib.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Hüseynzadə Elnur Namiq oğluna məxsus AD № 0009476 nömrəli, kiçik çavuş Heydərov Orxan Zeynal oğluna məxsus AD № 0042735 nömrəli, əsgər Mustafayev Əvəz Yasin oğluna məxsus AD № 0015452 nömrəli və əsgər Nağıyev Dərgah Namiq oğluna məxsus AD № 0037888 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 224
Nüsxə 4080